

Arayış: *Mənsur Vidadi oğlu Şükürov 1984-cü il fevralın 25-də Ağdam rayonun Şıxbabalı kəndində anadan olub. 1999-cu ilə qədər Bakdakı Suraxanı rayonu 104 saylı orta məktəbdə, 1999-cu ildən 2002-ci ilədək Cəmşid Naxçıvanski adına Hərbi liseydə, 2002-ci ildən 2006-cı ilədək Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb. 2007-ci ilədək Təlim-Tədris Mərkəzində dinləyici kimi iştirak edib. 2007-ci ildən etibarən isə ordu sıralarında xidmətə başlayıb. Mayor rütbəli hərbçi hazırda “N” saylı hərbi hissədə Tabor komandiridir*

## Üç gün mühasirədə qalan yaralı komandir:

# “Şuşanı almaq, Qarabağın açarını almaq idi”

(əvvəli ötən sayımızda)

***- Böyük qələbədə payı olan biri kimi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatı necə qiymətləndirirsiniz? Məhz bu bəyanatla 3 böyük rayonumuz qansız-qadasız, itkisiz geri qaytarılır. Bunların arasında sizin doğulduğunuz Ağdam da var...***

- Ali Baş Komandana halal olsun.Açığı, bunu demək hamımızın haqqıdır, kimsə bunu başqa cür başa düşməsin.Ölkə rəhbərinin qələbə müjdəsilə küçələrə axışan insanları kimsə zorla ora çağırmamışdı, kimsə onlara Prezidentə dəstək olmağı, onunla bağlı şüarlar səsləndirməyi tapşırmamışdı.Hər şey insanların istəyindən irəli gəlirdi.Hamı bu qələbədə böyük əmək sahibi olan Ali Baş Komandana sevgisini əlindən, ürəyindən gəldiyi kimi göstərmək istəyirdi.İlham Əliyev xalqın öz ürəyindən gələn sevgisini sonuna qədər haqq etdi bu qələbə müjdəsilə.Bilirsiniz, ordu öz işini görürdü, amma buna parlalel olaraq, Ali Baş Komandan da Azərbaycana qarşı çıxanlarla siyasi meydanda vuruşurdu.Bu qələbə kimlərəsə asan görünə bilər, amma inanın elə deyil.Əvvəllər insanlarda o qədər bədbinlik vardı, hətta öz yaxınlarımızdan “torpaqlar getdi, daha qayıtmaz” düşüncəsində olanlar vardı.Müharibə etmək asan deyil.Döyüş hamıya qıraqdan asan görünür.Elə “niyə müharibə etmir” deməklə olmur müharibə, müharibə etmək üçün siyasi iradə, iqtisadi güc, təminatlı ordun olmalıdır.Bütün bunlar isə bir günə ərsəyə gəlmir.Bir briqadanın 1 saatlıq döyüşü milyonlarla dollardır. Bu kişi də illərdir qarşısına qoyduğu məqsədə çatmaq üçün əlindən gələn bütün mümkün olan variantları etdi. ***Bu gün bütün dünya ‘Vətən müharibəsi’hdən, döyüşlərdə istifadə edilən silahlardan danışır.Bu, Azərbaycanın gücüdür.Tarixən torpaqlarımız verilə-verilə gedib, əksəriyyət də deyirdi ‘Qarabağ da belə getdi’.Amma bu kişinin Ali Baş Komandanlığı ilə ordumuz Qarabağı geri qaytardı, təqvimi dəyişdi, yeni tarix yazdı.***





- Ölkə rəhbərinin sərəncamı ilə “Vətən müharibəsi”nin iştirakçılarına orden və medallar veriləcək. Zəhmətin qarşılığını görmək hamıya xoş gəlir, hələ bu ölkənin zəfərilə bağlıdırsa. Bu barədə fikirləriniz maraqlıdır.

- Mənim bu döyüşlərdə nə zəhmətim varsa, hamısını o kişiyə (Ali Baş Komandanı nəzərdə tutur-red.) halal etmişəm, versə də sağ olsun, verməsə də. Mən döyüşə qatılanda medal üçün döyüşməmişəm. Bu gün torpaqlarımız azaddır, bundan böyük sevinc ola bilməz. Biz 30 ildir torpaq deyib zarıyırdıq, dilimiz gödək, boynumuz bükük idi. Hamı bizə üstdən aşağı baxırdı ki, erməni nədir onun əlində aciz qalmısınız. Bizim də səhvimiz o olub ki, ermənini çox böyütmüşük, guya torpaqlarımızı geri ala bilmərik. Vallah elə yüksəkliklər vardı, şəxsən mənim taborumdakı uşaqlar bir güllə belə atmadan, birbaşa güllənin üstünə qaçıb ərazini götürmüşük. ***Eləcə erməninin üstünə qaçmışıq, biz getdikcə nələri var atıb qaçıblar. Nə olacaqsa, şəhidlərimizin ailələri üçün edilsin, hər şey onların halalıdır. İlham Əliyev kişi kimi dediyini elədi, tarixi dəyişdi, indi hamı dik gəzir, indi hamının sinəsində qürur var. İşğaldan azad edilmiş yerlərə qayıtmaq bilirsiniz nə deməkdir? O yaşlı insanlar ki var illərdir o torpaqlarda ölməyi əhd ediblər, ora qayıdanda bəlkə də sevincdən ürəkləri dayanacaq. Bu, dəhşətli hisdir. Mən özüm Ağdamı yenidən görəcəyim üçün ürəyim titrəyir. Hətta dağıdılmış, xarabalığa çevirilmiş yerlərimizi şəkillərdə görəndə, adamın q***ürurdan ürəyi dayanır az qala. Ona görə bu günlərimizə min şükr. Bu gün bütün dünya Azərbaycandan danışır. Bu, böyük qələbədir, kimsə bunu unutmasın.

Müharibə gedən regionlara, ölkələrə baxın və müqayisə aparın. 4-5 ilə itirilən torpaqlrımızı 44 günə geri qaytarmaq Vallah asan deyil. Mən arada yoldaşlara deyirəm ki, 44 günə alınan torpaqları piyada qət etməyə çalışsaq, mümkün olmaz. Dediyim yol düzəngah deyil, keçilməz dağlar, təpələrdir. Siz ordudakı şücaətə, əzmə baxın ki, mümkünsüzü bacardı. Əsgər gecəgündüz yatmırdı, gecə yol, gündüz hücum. Elə bil Allah hamıya güc-qüvvə vermişdi, iradə vermişdi, hamının bir istəyi vardı-qabağa gedək, dayanmaq söhbəti olmasın.

- Qələbəni tam olaraq, yaşaya bilməyənlər də var. Bir vaxtlar “Daha Qarabağ getdi”deyənlər, indi də “döyüşlər dayandırılmasaydı, hərbçilərimiz bütün torpaqları silah gücünə geri alacaqdı” düşüncəsindədirlər. Razılaşırsınız bu fikirlə?

- Bilirsiniz, Şuşa açar idi, Şuşa alınmaz qala idi. Şuşanı aldıq, açarı aldıq. Çox gözəl taktika il gedirdik, erməni Ağdamda mühasirədə qalmışdı, hamısı qırılacaqdı. Kəlbəcəri daha çox itki versəydik belə, alacaqdıq. Xankəndinə gələndə, Xankəndi Şuşanın ayağının altındadır. Şuşadan daş atanda gedib Xankəndinə düşür. Xankəndini almaq iki vur iki idi. Çətinlik Laçınla Kəlbəcərdə olacaqdı. Şuşanı alan igidlər, oranı da alacaqdı. Şuşaya gedən 2-3 yol vardı ki, erməni onu bağlamışdı. Ermənənin ağlına gəlməzdi ki, ordumuz Şuşaya haradan daxil olar. Şuşa ordumuz tərəfindən geri alınanda ermənilər hələ də şokdaydı. Ona görə necə deyim, bir az dardüşüncəli, əli silah tutmayan, döyüş nədir bilməyən insanlardır ki, deyir niyə axıra kimi getmədik. Ordumuz getdi, sonunu da Ali Baş Komandan öz siyasətilə tamamladı. Bu heç kimə asan gəlməsin. Bunu deyənlər, siz Prezidentdən ağıllısız? Axı o özü də dedi ki, nəyi, necə, nə vaxt etməyi yaxşı bilir. Ona görə yaxşı olar ki, hamı öz işilə məşğul olsun. İndiyə kimi bu torpaqlar erməni işğalında idi. Ona görə bu günlərə yarımçıq yox, ürəkdən sevinmək lazımdır. Ən çox itkini elə bəyanatla geri qaytarılacaq torpaqlarda verəcəkdik. O torpaqlar elə Şuşaya qədər verilən itkilərin hesabına geri qaytarılır. O yerlərə çatana kimi igid oğullarımız can qoyub. Bəziləri var, görürsən hətta efirdə də deyir ki, gərək axıra kimi gedəydik, eləsinin əlinə silahı verib sərhəddən o tərəfə yola salmaq lazımdır, getsin yüz metr torpaq alsın, görüm necə alır. Təkrar çıxsa da, qıraqdan döyüş asan gəlir. İki gün yatmayanda üçüncü günü leş kimi qalır adam. 44 gün yatmamaq bilirsiniz nə deməkdir? Azərbayca Ali Baş Komandanın rəhbərliyilə Qarabağ müharibəsinin axırına kimi getdi. Bundan sonrası azadlıqdır.

***Cənab mayorla Ağdamda qonağı olmaq ümidilə sağollaşırıq...***

***- İnşallah hamımız bir yerdə Ağdamı, Cəbrayılı, Kəlbəcəri, Hadrutu gəzərik. Dağların arasında yerləşən Hadrut çox gözəl yerdir. Oranın havası nəyə desəniz dəyər, dağların arasından axan sular gözyaşı kimi dupdurudur. Biz dərinlikdə olanda, günlərlə Hadrutun dağ armudu, dağ alması ilə qidalandıq. Bu hər şeyə dəyərdi inanın. Baxmayaraq ki, o yerlərdə döyüşmüşəm, indi özümə də çox maraqlı gəlir gedib görmək...***

*“Şuşa açar idi, Şuşa alınmaz qala idi. Şuşanı aldıq, açarı aldıq. Çox gözəl taktika il gedirdik, erməni Ağdamda mühasirədə qalmışdı, hamısı qırılacaqdı. Kəlbəcəri daha çox itki versəydik belə, alacaqdıq. Xankəndinə gələndə, Xankəndi Şuşanın ayağının altındadır. Şuşadan daş atanda gedib Xankəndinə düşür. Xankəndini almaq iki vur iki idi. Çətinlik Laçınla Kəlbəcərdə olacaqdı. Şuşanı alan igidlər, oranı da alacaqdı. Şuşaya gedən 2-3 yol vardı ki, erməni onu bağlamışdı. Ermənənin ağlına gəlməzdi ki, ordumuz Şuşaya haradan daxil olar. Şuşa ordumuz tərəfindən geri alınanda ermənilər hələ də şokdaydı”*